# Ulu öndər: Bizi birləşdirən dəyər

Mövlud Teymur təbiət etibarı ilə vətən şairidir. Onun rəngarəng poeziyasında Azərbaycan xəritəsinin bütün rənglərini görmək olar. Onun şeirlərində Şahdağ zirvəsindən tutmuş Muğanacan, Dərbənd keçidindən başlamış Lənkəranacan, Xəzərdən üzü Zəngəzuracan, Mildən, Şirvandan Naxçıvanacan və bütövlükdə Qarabağacan, Borçalıyacan vətənin nəinki təbii mənzərələrini, həm də etnotoponomik mənzərəsi də poetik tərənnümdə bütün canlılığı ilə görünür.

Mövlud Teymur insanları nə qədər sevirsə, təbiəti də bir o qədər uca tutur. Hətta təbiəti insanlarla qovuşuq obrazda tərənnüm etməyi yaradıcılığında əsas mövzuya çevirir.

Mövlud Teymur sözünün, sənətinin əsas mövzusunu əslində ilk gəncliyindən müəyyən edib. Onu Azərbaycan təbiətini, Azərbaycan insanını sonsuz sevgi ilə vəsf etməsinin əsas ilham qaynağı onun vətənə və yurda sədaqəti ilə bağlıdır. Qəlbən yurdu sevən insan bu yurdun sahiblərinə də sonsuz inam bəsləməkdən mənəvi zövq alır. Özünün gücünü, ilham qüdrətini qoynunda doğulduğu, mühitində boy atdığı yerlə, yurdla təmasda hiss edir.

İnsafən Mövlud Teymur mövzu baxımından kasadlıq çəkmir. Onun üçün bir bulağın həzin nəğməsi, bir meşənin həyat üçün cazibəli təbiəti bir dağ şəlaləsi və eyni zamanda bir dağın döşündəki kənd, bu kənddə yaşayan insanlar, ümumiyyətlə, insan-təbiət münasibətləri tükənməz bir mövzudur.

Hər bir sənətkar üçün qəlbinin mənəvi mühitini təyin edən təsir vasitələri var. Mövlud Teymur da həssas bir şair olduğundan onun üçün meşədə bir ağacın qırılması, bir uşağın atasızlıq, ya anasızlıq dərdi onun poeziyası üçün mövzu ola bilir.

Mövlud Teymurla mənim yaradıcılıq əlaqələrim uzun illərdən bəridir ki, davam edir. O, həmişə nəşr olunan kitablarını, deyərdim ki, birinci olaraq mənim ünvanıma avtoqrafla yazır və gətirib çatdırır. Kitab arxivimdə onun “Ürək yanğısı” adlı çox dəyərli bir şeirlər kitabı da var. Bu kitabın avtoqrafında müəllif yazır: “Hədsiz hörmət bəslədiyim şair-publisist Əli Rza Xələfliyə ədəbiyyata hədsiz sevgisinə görə minnətdarlıq duyğusu ilə hədiyyə edirəm”. Yəqin ki, həssas oxucu üçün bu sözlərin nə demək olduğu kifayət qədər aydındır. Şübhəsiz, Mövlud Teymur mənim özümü də hələ dostluğumuzun başlamdığı zamanda mətbuatdan və demək, həm də “Kredo” qəzetindən izləyib.

Mən yaxşı bilirəm ki, şəxsi münasibətlərin yaratdığı təmas heç də yaradıcılıq münasibətlərinin cazibəsi ilə yaranan təmasdan güclü deyil. Demək, Mövlud Teymur da əslində məni yazılarımla tanıyıb. Necə ki, mən də onu kitabları ilə, yaradıcılığı ilə tanımağa üstünlük vermişəm. Mahiyyətcə bu ən doğru, ən düzgün ünsiyyət körpüsüdür.

Mövlud Teymur çoxlu kitabların müəllifidir. Yəqin ki, onun “Ürək yanğısı” adlı kitabı da onun poetik yaradıcılığının bir mərhələsi kimi ədəbiyyat tariximizdə ayrıca yer tutur. Bu kitabı məşhur naşir və görkəmli şair Qəşəm İsabəyli nəşr edib. “Şirvannəşr” vasitəsi ilə oxuculara çatdırılan kitab işıq üzü görəndə Mövlud Teymur Beynəlxalq Rəsul Rza mükafatı laureatı idi. Həmin kitabın redaktoru görkəmli şair, orijinal xarakteri ilə yaddan çıxmayan Müzəffər Şükür Məchul olmuşdur.

“Ürək yanğısı” - şübhəsiz, Mövlud Teymur bu adı təsadüfi seçməyib. Axı yuxarıda qeyd etdik ki, o həssas bir insandır. Həyatın ağrı-acılarını, ən başlıcası, təzadlı rənglərini qədərincə duyan və bu təzadları öz şeirlərinə gətirə bilən şairdir. Yəqin ki, o təbiət etibarı ilə həyatdakı kəm-kəsirlər üçün yaşadığı iztirabları poetik düşüncədən keçirərkən öz hisslərinə istinad edib. Elə ona görə də bu kitabını “Ürək yanğısı” adlandırıb. Onu da qeyd edək ki, Mövlud Teymurun “Ürək yanğısı” kitabı çap olunanda o artıq Azərbaycan mənəvi mühitində tanınmış bir şair idi. Xüsusilə hər hansı bir “izm”in təsirinə qapılmadan artıq XXI əsrə qədəm qoymuş poetik ənənənin davamçısı kimi qəbul edilmişdi.

“Ürək yanğısı” kitabının bir çox məziyyətləri var ki, bu barədə ayrıca, qədərincə danışmaq olar. Ancaq yəqin ki, onun artıq oxucu yaddaşında özünə yer almış mövzuları bu günün tələbatına uyğun şərh etmək daha yaxşı olar. Kitab bir çox bölmələrdən ibarətdir. Birinci bölüm, “Döyünən, vuran ürəyim” adlanır. Bu kitabda ilk şeir ulu öndər Heydər Əliyevə həsr olunub.

İstər-istəməz Heydər Əliyev mövzusu real həyati hadisələri düzgün qavrayan adamlar üçün kifayət qədər aydındır. Çünki 90-cı illərin əvvəllərində Azərbaycanın başına gətirilən müsibətlər, faciəli hadisələr asanlıqla unudulan deyil. Mövlud Teymur da bu hadisələri kifayət qədər aydınlığı ilə görən şahidlərdən biridir. Azərbaycan şimaldan təhdid olunurdu. 5 rayonun ərazisinə iddia edən Sadval terror təşkilatı yəqin ki, bu günün insanlarının da yadından çıxmayıb. Eləcə də cənubla bağlı separatizm meyilləri necə unudula bilər? Qarabağ isə artıq işğal olunmuşdu. Azərbaycan siyasi cəhətdən demək olar ki, iflas vəziyyətində idi. Belə bir məqamda Azərbaycan Respublikasının Prezidenti Əbülfəz Elçibəyin də təşəbbüsü və xalqın təzyiqi ilə Heydər Əliyevin yenidən hakimiyyətə gətirilməsi yeganə çıxış yolu kimi görünürdü. Bu, tarixi həqiqət idi. Əslində çıxış yolu kimi yox, bu yeganə çıxış yolu idi. Mövlud Teymur da 1995-ci ildə hələ hadisələrin soyumadığı və Azərbaycanın müstəqilliyinə təhdidlərin səngimədiyi bir zamanda Heydər Əliyevin ünvanına müraciət edir.

O dövr kifayət qədər ziddiyyətli idi. Azərbaycanın əlehdarları elə bilirdilər ki, tezliklə Heydər Əliyevin hakimiyyətini devirə biləcək və öz istəklərinə, ən başlıcası, qara niyyətli istəklərinə yetəcəklər. Amma inananlar da çox idi. Və onlardan biri də Mövlud Teymur olmuşdu. Bəli, M.Teymur dövlətçi adam idi. O, Azərbaycan dövlətinin gücünü, qüdrətini Azərbaycanın varlığı kimi dərk edirdi. Bir sözlə, o öz düşüncələrini “misli görünməyən rəhbərdir Heydər” adlı şeirində ifadə etməyə çalışmış və Azərbaycan dövlətini çökdürmək istəyənlərə özünün şair və ziyalı mövqeyini bitmənalı şəkildə bildirmişdir.

Vətəni tanıyan, xalqı tanıyan,
Doğrunu tanıyan, haqqı tanıyan.
Bu günü tanıyan, çağı tanıyan,
Ən yaxın dost, munis, sərvərdir Heydər,
Misli görünməyən rəhbərdir Heydər!
O qurdu, yaratdı, tikdi, ucaltdı,
Arzusu, əməli eşqdi, həyatdı.
Şöhrətdi, şərəfdi, ən ülvi addı,
Ömürə açılan səhərdir Heydər,
Misli görünməyən rəhbərdir Heydər!

Gecəni nurladan ulduzdu, aydı,
Çağlayan bulaqdı, kükrəyən çaydı.
Alınmaz ordudu, sınmaz alaydı,
Nəğmədir, mahnıdır, şeirdir Heydər,
Misli görünməyən rəhbərdir Heydər!

Hər sözü qızıldı, zərdi, gövhərdi,
Ağlatdı namərdi, güldürdü mərdi.
Qorxmayan ərəndi, susmayan ərdi,
Qüdrətdi, hünərdi, zəfərdir Heydər,
Misli görünməyən rəhbərdir Heydər!

Bu şeirin məziyyətlərini təhlil etmək, poetik gücünü şərh etmək elə də çətin deyil. Ancaq bu şeirin əsas dəyəri həmin ziddiyyətli dövrdə bir şairin öz mövqeyini əks etdirməsindədir. Onun poetik ifadə tərzində Heydər Əliyev sözün həqiqi mənasında ümummilli lider kimi xarakterizə olunur. Onun vətəni tanıdığını, milləti uca tutduğunu, ən başlıcası, doğrunu, haqqı uca tutduğunu bütün əhatəliliyi ilə bilir, görür və gördüyü, bildiyi kimi bunu təqdim etməyə çalışır. O, 95-ci ildə artıq inamla yazırdı ki, Heydər Əliyev Azərbaycan dövlətinin mövcudluğunu öz qüdrəti ilə qoruyub. O, öz adı ilə bu dövlətə şan-şöhrət gətirib.

Şairin təsvirlərində Heydər Əliyev milli qəhrəman obrazı kimi təqdim olunur və kifayət qədər həyat hadisələrinə istinad edir.




Həmin kitabda - yəni “Ürək yanğısı” kitabında ikinci şeir də ulu öndərə həsr olunub. Bu şeirdə artıq şairin sonsuz kədəri yer alır. Çünki o artıq ulu öndərin dünyanı tərk etməsindən, cismani ayrılığından danışır. Bu şeiri oxuyanda istər-istəməz görkəmli alban xaqanı, qüdrətli sərkərdə Cavanşirin ölümü yada düşür. Həmin ölümə Davdək adlı alban şairi ölməz bir mərsiyə həsr etmişdi. Həmin mərsiyədə Cavanşirin gücü, qüdrəti təsvir olunurdu. Ən başlıcası, Cavanşir tarixin qüdrətli sərkərdəsi, hökmdarı kimi tərənnümə layiq bilinirdi. Onu kimsə yaddan çıxara bilməyəcək qənaəti ilə mərsiyə yaddaşlara həkk olunmuş və bu gün də tarixi möhtəşəm bir əsər kimi oxunmaqdadır. Mövlud Teymurun “Ürək yanğısı” kitabında “Sartsıtdı ölümü məni Öndərin” mərsiyəsi kifayət qədər canlıdır və realdır. Sözün həqiqi mənasında bu əsərdə Mövlud Teymurun Ulu öndər Heydər Əliyevə sonsuz sevgisini və onun ölümündən duyduğu hədsiz kədəri hiss etmək olar.

Ömründə heç belə sarsılmamışdım,
Sarsıtdı ölümü məni Öndərin.
Sındırdı belini saldı torpağa,
O gün eşitdiyim hər şad xəbərin!

Əlimi süfrəyə aparammadım,
Qurudu boğazım, tutuldu nitqim.
Nə danışa bildim, nə dinə bildim,
Qara bağlamışdı hər arzum, eşqim!

Belə də dərd olar, belə də kədər,
Yıxıldı çinarım, boğuldu pipim.
Ağladı İsrafil, Məmmədyar babam,
Ağladı Gül nənəm, Güleydə bibim!

Çox maraqlı məqamlar səslənir. Adlar çəkilir. Sanki Davdəkin Cavanşir haqqında yazdığı qəsidənin misraları yaddaşımızda canlanır: “Mənim şərq ölkəmi bürüdü kədər”. Mövlud Teymur da ümumxalq kədərini özünün doğmalarının adlarına istinadla ifadə etməsi Davdəkin həmin misralarını yaddaşımızda canlandırır. Doğması İsrafilin, Məmmədyar babasının, Gül nənəsinin ağlamağı, Güleydə bibisinin dərdlə, kədərlə oxşamaları onun əslində ulu öndərin ölümünü ümumxalq kədəri kimi ifadə etməsinin mahiyyətidir.

Mövlud Teymur böyük kədərin mahiyyətini doğmalarından keçirərək poeziyaya gətirir və bu kədərin əslində hamı üçün necə doğma olduğunu çatdırır.

Anam fikrə getdi, atam xəyala,
Qardaşım: Min heyif, - dedi, - dayandı.
Bacım: Niyə? - dedi, xalam: Nə üçün?
Qonum-qonşu səsə, haya oyandı!

Nə olub söylədi dağ da, qaya da,
Kədərdən çaylar da kəsdi səsini.
Bulaq qəhərləndi, şəlalə susdu,
Ötdü küləklər də qəm nəğməsini!

Yayıldı cahana, yayıldı ərzə,
Gülümsər gözlərdə yaş gilələndi.
Matəmə ölkələr, dost ellər axdı,
İsti ürəklərdə qış çiləndi!

Əridi quzeydə qar da, qırov da,
Hər tərəf sel-suya, nəm-yaşa döndü.
Dənizlər yarandı, göllər yarandı,
Nur görən gözlərdə işıq da söndü!

Ömründə heç belə sarsılmamışdım,
Sarsıtdı ölümü məni Öndərin.
Sındırdı belini saldı torpağa,
O gün eşitdiyim hər şad xəbərin!

Şeirin poetik səmimiyyəti, sözün həqiqi mənasında şairin ruhunda yaranmış sarsıntılar bizi məcbur etdi ki, bu şeiri oxucuya olduğu kimi, bütöv halda çatdıraq.

Ulu öndər Heydər Əliyevin Azərbaycan dövlətçilik tarixində yerini bilməyən, gücünü görməyən qələm sahibləri ilə müqayisədə Mövlud Teymurun mənəvi mühitimizdəki yeri bu şeiri ilə də kifayət qədər aydınlığı ilə görünür.

“Ürək yanğısı” kitabının kifayət qədər dərin, yaddaşda iz buraxan məziyyətləri var. Ancaq bu qeydlərdə ulu öndərə həsr olunmuş iki şeirin təəssüratını dağıtmamaq üçün digər mövzulara müraciət etmirik.

Mövlud Teymur yaradıcılığının səmimiyyəti üçün əsas olan amil onun “Ürək yanğısı”dır.

Mövlud Teymurun ulu öndərə həsr olunmuş “Sarsıtdı ölümü məni Öndərin” adlı qəsidə ruhlu şeiri Davdəkin Cavanşirin ölümünə həsr olunmuş məşhur qəsidəsinin yeni zamanda yeni öndərin ölümü ilə bağlı poetik düşüncələrinin davamı kimi səslənir.

*Ə.ƏZİZLİ*
*09.01.2023*